# BƏNÖVŞƏ ÇƏLƏNGİ

**(şeirlər toplusu)**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı – "Elm" – 2013**

RAFİQ YUSİFOĞLU

**Bənövşə**

Bahar dostu, çiçək dostu olanlar,
Gəlmişəm ki, təbrik edim sizi mən.
Nə olsun ki beş-on günlük ömrüm var,
Baharın ilk sözü mənəm, sözü mən!
Tapdanaram, necə çıxım yola mən?
Səngərimdi, sığınmışzm kola mən.
Bahar məni bir əsgərə döndərib,
Əbəs yerə hədələyir qış onu.
Bahar məni kəşfiyyatçı göndərib,
Hazır durub onun çiçək qoşunu...

**Bənövşə**

Səni intizarda qoyub gəlmişəm,
Başqa çiçəklərə uyub gəlmişəm.
Sənin həsrətindən özgə nə dərdim,
Bənövşə, qəlbimi salmısan oda.
Səni sevə-sevə nərgizi dərdim,
Taleyin hökmüymüş sən demə bu da...

## Bənövşələr

Deyirlər ki, bənövşələr
Çəmən xalanın qızıdır.
Bənövşə var bənövşəyi,
Bənövşə var qırmızıdır.

Göstərdi qan bənövşəsi
Bayük bacı göycə mənə.
Damcı-damcı qan çilənib
Elə bil ki göy çəmənə.

## Səhər dərərsən

Yatmaz layla çalmasan
Şeir sevəndir vüsal.
-Yuxum gəlmir, ay nənə,
Tez ol, mənə layla çal!
-"Layla çaldım həmişə,
Karvan enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə".
-Doğrudan, gül bitəcək
Yastığımda, nənəcan?
Bəs o bənövşələri
Dərəcəyəm mən haçan?
-Əgər yatsan yuxunda
Çiçəkləri görərsən.
Onlar gecə bitəcək
Səhər durub dərərsən.